**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**HÜSEYN ABDULRƏHMAN oğlu HÜSEYNLİ**

# TÜRKİYƏ – NATO MÜNASİBƏTLƏRİ
## (XX əsrin 90-cı illəri-XXI əsrin əvvəlləri)

İxtisas: 5507.01 – Beynəlxalq münasibətlər tarixi

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **M.B.FƏTƏLİYEV**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru **M.H.SEYİDBƏYLİ**

Tarix üzrə elmlər doktoru **S.M.SEYİDOVA**

**Aparıcı müəssisə:** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış B/D.02.161 saylı Dissertasiya Şurasının "___" _ 2018-ci il tarixli iclasında, saat "___"-da keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küç., 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___"___________2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor S.Y.SÜLEYMANOVA**

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** SSRİ-nin süqutundan sonra NATO-nun şərqə doğru genişlənməsi prosesinin daha sürətli xarakter alması qütbləşməni daha da dərinləşdirdi. Hadisələrin inkişafında NATO-nun ən sadiq üzvü kimi Türkiyə də böyük pay sahibi oldu. Problemlə tanış olarkən XX əsrin 90-cı illəri - XXI əsrin əvvəllərində ideologiyaların, ayrı-ayrı yerlərdəki siyasi mexanizmlərin və nəhayət, fərdi obrazların siyasi qarşıdurmalarda nə dərəcədə mühüm rol oynadığı açıq-aydın görünür. Bu ideologiyaların kəskin qarşıdurmasının qeydə alındığı ərazilər Cənub-Şərqi Avropa, Cənubi Qafqaz, Yaxın və Orta Şərq regionları olmuşdur. SSRİ-nin süqutundan sonra NATO-nun gələcəyinin necə olacağı ətrafında yaranan müzakirələr terrorizmə qarşı mübarizənin ittifaqın əsas xətti elan edilməsi ilə öz həllini tapmış oldu. Bu da öz növbəsində Türkiyənin gələcəkdə NATO üçün necə mühüm bir üzv olacağından xəbər verirdi. Ən azından ona görə ki, 16 münaqişə bölgəsindən 13-ü Türkiyəyə yaxın ərazilərdə yerləşirdi.

XX əsrin sonlarından başlayaraq dünyada, o cümlədən Yaxın və Orta Şərqdə, Cənub-Şərqi Avropada, Cənubi Qafqazda baş verən hadisələr bu gün dünya ölkələrini daha çox maraqlandırır. Çünki bu regionlarda yaşanan böhranlar və onların tənzimlənməsi istiqamətində dünyanın aparıcı dövlətlərinin və onların üzv olduğu təşkilatların mövqeyi və rolu həlledici xarakter daşıyır. Böhran mərkəzləri ilə bağlı göstərilən hüdudların əsasən Türkiyənin ən yaxınında və bir vaxtlar varisi olduğu dövlətin sərhədləri daxilində olan əraziləri əhatə etməsi, Türkiyənin NATO təşkilatının üzvü olması mövzunun aktuallığını şərtləndirir.

Məlum olduğu kimi NATO təşkilatı 1949-cu il aprelin 4-də Vaşinqton müqaviləsinin imzalanması ilə yaradıldı. Başlıca vəzifəsi SSRİ-yə qarşı qoruyucu qalxan yaratmaq olan bu təşkilatın Sovet İttifaqının süqutu ilə fəaliyyətini başa vurması gözlənilsə də bu baş vermədi. Əksinə, 1991-ci ildə yeni strateji konsepsiyasını təsdiq edən NATO yalnız təşkilatın ömrünü uzatmaqla qalmadı, həm də üzv ölkələrə təsir edən hər növ böhranın həlli kimi yeni bir siyasi xəttini bəyan etmiş oldu. Bununla da kifayətlənməyən təşkilat konsepsiyasını daha da konkretləşdirərək 1999-cu ildə birbaşa NATO üzvlərindən hər hansı birinə hücum olunmadığı hallarda da böhrana müdaxilə edə biləcəyi barədə qərar qəbul etdi. XX əsrin sonlarına qədər təşkilatın ayrılmaz bir hissəsinə çevrilmiş olan Türkiyə də qəbul edilən bu qərarlardan kənarda deyildi. Demək olar ki, NATO tərəfindən müdaxilə edilən bütün böhranların tənzimlənməsi tədbirlərinə

istər cəbhədə, istərsə də hərbi əməliyyatlar sonrası quruculuq işlərinə Türkiyə öz töhfəsini vermişdir. Avropa ailəsinə qoşulmaq üçün Türkiyə bu təşkilatın fəaliyyətində iştirakı bir körpü olaraq qiymətləndirirdi. NATO-nun istər Şərqə doğru genişlənməsində, istərsə də böhranlara qarşı görülən tədbirlərdə Türkiyənin bu baxımdan götürdüyü xarici siyasi kursun dinamikasını izləməklə bir çox suallara cavab tapmaq mümkün olur. Məsələn, beynəlxalq terrorizmə qarşı mübarizənin əsas cəbhəsinin niyə məhz Yaxın və Orta Şərq olması, daha çox sülh və sabitlik tərəfdarı olan Türkiyənin nə üçün terrorla bağlı problemlərdən xilas ola bilməməsi və s. bu kimi suallara mövzunu tədqiq etməklə cavab tapmaq olur.

Qloballaşan müasir dünyada NATO həlledici yer tutur. Əsas vəzifəsi təşkilata üzv ölkələri siyasi və hərbi vasitələrlə müdafiə etmək olan NATO-nun yeri və rolunu daha yaxşı başa düşmək üçün Avropa ilə Amerikanı birləşdirən yeganə vasitə olmasını, ABŞ-ın maraqlarını mütləq nəzərə almaq lazımdır. Əgər Alyans Avropa təhlükəsizliyi və ümumavropa inteqrasiyası üçün həlledici əhəmiyyət daşıyırsa, ABŞ-ın iştirakı da Alyans üçün bir o qədər həlledici əhəmiyyətə malikdir. Bu gün NATO soyuq müharibə dövründə yaradılma məqsədinin hüdudlarını çoxdan aşmaqla müxtəlif sahələrin tənzimlənməsini öz fəaliyyətində ehtiva edir. Bu fəaliyyətin hüdudları təşkilat üzvlərinin təmin edilməsindən təhsil və təlim, ətraf-mühit proqramlarının təşkili və icrasına qədər uzanır. Son illər NATO-nun fəaliyyət strategiyasının yenilənməsi ilə bağlı mütəxəssislər arasında ciddi müzakirələr gedir. Bu təşkilata artıq ehtiyacın qalmadığını vurğulayanlar da vardır. Əksər ekspertlər isə Şimali Atlantika Alyansına hələ ehtiyacın qaldığını əsaslandırmaqla onun, əslində, indiki mərhələnin yeni çağırışlarına uyğun strategiya seçməli olduğunu qeyd edirlər.

2014-cü ildə Uelsdə keçirilən sammit müəyyən mənada bu kimi fikirlərə cavab vermiş oldu. Həmin sammitin 113 bənddən ibarət yekun bəyannaməsini məzmun baxımından şərti olaraq üç hissəyə bölmək olar. Birinci hissədə meydana çıxan yeni təhlükələrdən, ikincidə NATO tərəfindən bunların həll edilməsi zərurətindən və nəhayət, üçüncü hissədə həmin problemlərin konkret olaraq aradan qaldırılması strategiyasından bəhs edilir. Həmin sənəddə açıq şəkildə vurğulanır: "Bizdən cənubda olan regionda, Yaxın Şərqdən Şimali Afrikaya qədər ərazidə artan qeyri-sabitlik, transmilli və çoxölçülü təhlükələr təhlükəsizliyimizə təhdidlər yaradır". Bu təhlükə amilləri NATO-nun fəaliyyətinin yeni istiqamətlərinin müəyyənləşməsində ciddi rol oynayır. Coğrafi aspektdə bunlar Şərqi Avropanı (Rusiyanın timsalında), Yaxın Şərqi (dini radikalizm, son vaxtlar isə konkret olaraq, İŞİD təhlükəsi), Şimali Afrikanı (radikal dini

qruplaşmalar, terror təşkilatları) və Cənubi Qafqazdakı münaqişələri (Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya) əhatə edir. Burada üstüörtülü şəkildə Sakit okean hövzəsindəki ixtilaflar (məsələn, Cənubi-Çin dənizində ərazi iddialarından qaynaqlanan münaqişələr) da nəzərə alınır. Əslində ittifaqın maraqları çərçivəsində ABŞ-ın xarici siyasət doktrinasının icra olunması sirr deyil. 1990-cı ildən başlayaraq "Yeni Dünya Nizamı" doktrinasını daha qərarlı şəkildə reallaşdırmağa çalışan ABŞ üçün NATO əlverişli bir vasitə rolunu oynayır.

Türkiyə yuxarıda sadalan regionlarda nəzarəti təmin etmək baxımından strateji əhəmiyyət kəsb etdiyinə görə NATO üçün əvəzedilməz bir üzvdür. Bu gün NATO tərəfindən Türkiyədə istifadə edilən təxminən 20 obyekt var. Türkiyə ordusu say baxımından təşkilatda ABŞ ordusundan sonra ikinci yeri tutur. Türkiyə NATO-nun Əfqanıstan, İraq, Balkanlar, Sudan və Liviyada keçirilən demək olar ki, bütün əməliyyatlarında iştirak edib. Bundan başqa Avropada NATO-nun radar – Raket Əleyhinə Müdafiə sistemi məhz Türkiyədə quraşdırılıb. Bu gün Türkiyənin Adana şəhəri yaxınlığında "İncirlik" aviabazasında ABŞ Hərbi Hava Qüvvələrinin 200 hərbi qulluqçusu var. Bu baza Suriya və İraqda İŞİD terrorçularının mövqelərinə hava zərbələri endirilməsində əsas plasdarm rolunu oynayır.

Bütövlükdə Türkiyə - NATO münasibətləri olduqca çoxşaxəli və tədqiqinə ehtiyac duyulan bir çox aktual məsələləri özündə ehtiva edir. Bu münasibətlərin sadaladığımız məsələlər çərçivəsində öyrənilməsi Türkiyə-NATO münasibətlərinin inkişaf dinamikasını daha obyektiv şəkildə tədqiq edilməsinə imkan verəcəkdir.

**Problemin öyrənilmə səviyyəsi.** Vətən tarixşünaslığı ilə müqayisədə xarici tarixşünaslıqda mövzunun ayrı-ayrı cəhətləri geniş şəkildə tədqiq olunmuşdur. Xüsusilə Türkiyə tarixşünaslığında Türkiyə-NATO münasibətlərinə həsr edilmiş ayrı-ayrı monoqrafiyalar, silsilə məqalələr yazılmış, dissertasiya işləri müdafiə olunmuşdur. Eləcə də rus və ingilis dillərində də mövzunun tədqiqinə həsr edilmiş kifayət qədər araşdırmalar mövcuddur. Bu araşdırmaların ən mühümlərini tədqiqata cəlb edərək problemin kompleks şəkildə öyrənilməsinə səy göstərmişik. İstifadə etdiyimiz tədqiqat əsərlərini aşağıdakı kimi sistemləşdirib nəzərdən keçirmək daha məqsədəuyğundur:

- Vətən tarixşünaslığında Türkiyə-NATO münasibətlərinə dair tədqiqatlar;
- Türkiyə tarixşünaslığında problemin tədqiqinə həsr edilmiş əsərlər;
- Xarici tarixşünaslıqda problemin öyrənilmə səviyyəsi.

NATO ilə bağlı kifayət qədər tədqiqat əsəri yazılmışdır. O cümlədən vətən tarixşünaslığında da Türkiyə-NATO münasibətləri çərçivəsində olmasa da, Azərbaycan-NATO münasibətlərində Türkiyənin rolunun öyrənilməsi, bütövlükdə NATO təşkilatının fəaliyyəti ilə bağlı qiymətli tədqiqatlar aparılmışdır. Bu tədqiqatlara misal olaraq Əli Həsənovun, Elşən Nəsibovun əsərlərini xüsusilə qeyd edə bilərik.

Əli Həsənovun "Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri" əsərində xronoloji cəhətdən 1991-1996-cı illər nəzərdən keçirilir. Xüsusilə əsərin "Azərbaycanın Qərb dövlətləri ilə əlaqələrində beynəlxalq təşkilatların rolu" adlı 4-cü fəslinin Qərb dövlətləri ilə əməkdaşlığın inkişafında NATO-nun roluna həsr edilmiş paraqrafında mövzu ilə bağlı dəyərli məlumatlar əldə etmək mümkün olur. Belə ki, müəllif geniş şəkildə "Sülh Naminə Tərəfdaşlıq" proqramının əhəmiyyəti və təhlükəsizlik sahəsində yeni münasibətlərin formalaşması üçün yaratdığı əlverişli şərait barədə məlumat verir. Tədqiqatçı bu proqramı demokratiyanın inkişafına və təhlükəsizlik sisteminin möhkəmləndirilməsinə bir töhfə kimi dəyərləndirir[1]. Əsərdə 1992-1996-cı illər çərçivəsində Azərbaycanın NATO ilə əməkdaşlığının inkişaf yoluna ətraflı şəkildə nəzər salınır və Azərbaycanın NATO-nun cənub cinahı olan Türkiyə ilə hərbi sahədə xüsusi əlaqələr qurmasına barədə məlumatlara az da olsa yer verilir[2].

Elşən Nəsibovun həm ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqlarında Azərbaycanın yeri və roluna[3], həm də Avrasiyanın geosiyasi mühitinin tədqiqinə həsr edilmiş əsərindən [4] mövzunun tədqiqində istifadə edilmişdir. Elşən Nəsibovun adı çəkilən ilk əsəri ABŞ-ın və Türkiyənin Cənubi Qafqaz dövlətlərində iqtisadi, hərbi-siyasi və təhlükəsizlik strategiyasından ibarət ümumi geosiyasi-strateji maraqlarının mahiyyətinin araşdırılmasına görə əhəmiyyətlidir.

Türkiyə tarixşünaslığı problemin tədqiqi baxımından daha zəngindir. Misal olaraq türkdilli tədqiqatların müəlliflərindən Dr.Güngör Şahinin,

---

[1] Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996), s. 287-293

[2] Həsənov Ə. Göstərilən əsəri, s. 294-315

[3] Nəsibov E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Bakı: Çıraq, 2006, 314 s.

[4] Nəsibov E. Avrasiyanın geosiyasi mühiti. Bakı: Elm və təhsil, 2013, 124 s.

Semih Hiçyılmazın və başqalarının adlarını[1] qeyd etmək olar. Güngör Şahinin əsəri [2] NATO-nun fəaliyyətinə ümumi formada nəzər salmaq baxımından dəyərlidir. Təşkilatın keçirilən sammitləri, NATO tərəfindən həyata keçirilən hərbi müdaxilələr, böhrana nəzarət və sülhə dəstək missiyaları, təşkilatın yeni strategiyası barədə məlumatlar əsərdə ayrıca fəsil və paraqraflar formasında öz əksini tapmışdır. Bu tədqiqat əsəri NATO-nun fəaliyyətini sistemli şəkildə izləməyə imkan verir.

Mehmet Erolun NATO-nun fəaliyyəti ilə bağlı dərc etdiyi topluda isə NATO-nun yeni strateji konspesiyası, böhranların tənzimlənməsi istiqamətində gördüyü tədbirlər, Avropanın təhlükəsizliyinin təmin edilməsindəki xidmətlərinin tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin Mehmet Erol müəllifi olduğu bu topluya yazdığı ön sözdə yanlış olaraq NATO daxilində bəzi qərarların qəbulunda qərarsızlıq və qeyri-sabitliyin olmasını əsas gətirmiş, buna örnək kimi "08.08.08 Rusiya-Gürcüstan müharibəsi"ni göstərmişdir. [3] Halbuki bu qərarsızlıq deyildi, NATO Rusiyanın Qafqazdakı fəaliyyətinə dair qərarını hələ XX əsrin 90-cı illərində vermişdi. Belə olmasaydı Rusiya Federasiyası Cənubi Qafqazda Azərbaycanla Ermənistan arasında müharibənin baş verməsinə imkan verməz və XXI əsrdə də Gürcüstana hərbi müdaxilə etməzdi.

Semih Hiçyılmaz adlı digər bir tədqiqatçı isə NATO-nun fəaliyyətini işıqlandıran əsərində təşkilatın fəaliyyəti və Türkiyənin rolu barədə maraqlı məlumatlar versə də, bəzi məqamlarda Türkiyə Cümhuriyyətinin əhəmiyyətini çox kiçildir. Türkiyəni müstəqil qərar qəbul etməyi bacaran bir dövlətdən çox, barəsində verilən qərarları icra edən dövlət kimi təqdim edir və bütün əsər boyu bu xətti izləyir. NATO-nun Yaxın və Orta Şərqdəki hədəfləri ilə bağlı müəllifin gəldiyi qənaətlər həqiqəti əks etdirsə də, Türkiyəni bir çox hallarda sadəcə verilən "əmri icra edən bir dövlət"[4] kimi təqdim etməsi müəllifin daha çox sosialist düşüncəsinin təsiri altında olmasından qaynaqlanır.

Türkiyə-NATO münasibətlərininin ümumi formada araşdırılmasına dair aparılan tədqiqatlara misal olaraq Alptekin Mollanın, Tayfun Taşkının,

---

[1] Şahin G. Küresel Güvenlik ve NATO. Ankara: Detay yayıncılık, 2016, 308 s.; Hiçyılmaz S. Halklara karşı bir örgütlenme NATO kuruluşundan İstanbul zirvesine. İstanbul: SAV, 2004, 172 s. və b.

[2] Şahin G. Göstərilən əsəri.

[3] Erol M.S. "Sıcak Barış"ın Soğuk örgütü: Yeni NATO. Ankara: Barış Platin yayınları, 2012, s. 5

[4] Hiçyılmaz S. Göstərilən əsəri, s. 56-59, 83-86, 101-119.

İhsan Gürkanın və başqalarının tədqiqatlarını[1] qeyd edə bilərik. Xüsusilə, A.Mollanın araşdırdığı tədqiqat əsəri problemin tədqiqi cəhətdən mühüm əhəmiyyət kəsb edir. Burada həm 1991-ci ildə baş verən Körfəz, həm də 2003-cü ildə baş verən İraq müharibələrindən əvvəl, onların gedişində və sonra cərəyan edən hadisələr və yaranan problemlərin həllinə dair fərqli yanaşmalar ətraflı şəkildə tədqiq edilib. Lakin tədqiqatın gedişində müəllifin İraq ətrafında yaranan böhranlı illər vaxtı "NATO üzvlərinin Türkiyəyə siyasi baxımdan istədiyi dəstəyi vermişdir"[2] qənaətinə gəlməsi sual doğurur. Halbuki nə Türkiyəyə belə bir dəstək olmuş, nə də A.Molla yazdığı məqaləsində kifayət qədər bu fikri əsaslandıra bilmişdir.

Türkiyənin xarici siyasəti ilə bağlı ümumiləşdirilmiş tədqiqat kimi Türkiyə tarixşünaslığında Ali Balcının, Faruk Sönməzoğlunun araşdırmalarını[3] qeyd edə bilərik. İstər A.Balcının, istərsə də F.Sönməzoğlunun tədqiqatlarında Türkiyənin "qonşularla sıfır problem" istəyinin bütövlükdə beynəlxalq aləmdə baş verən dəyişikliklərdən asılı olması nəticəsi hasil olur. Bu tədqiqatlara görə "orta böyüklükdə bir dövlət" kimi dəyərləndirilən Türkiyənin bir çox hallarda çox sıx münasibətlərdə olduğu dövlətlərlə, xüsusilə də Yaxın və Orta Şərq ölkələri ilə dəyişkən siyasi kurs yeritməsi də məhz bundan qaynaqlanırdı.

Xarici tarixşünaslıqda mövzunun öyrənilməsi ilə bağlı aparılan tədqiqatların əsas hissəsi ayrı-ayrı regionların və həmin ərazilərdə baş vermiş böhranların tədqiqi ilə bağlıdır. Cənub-Şərqi Avropadakı böhranların[4], Körfəz müharibəsinin öyrənilməsinə dair yazılan tədqiqatlar-

---

[1] Molla A. Soğuk Savaş sonrası körfez krizleri ve Türkiye-ABD-NATO ilişkileri // Yönetim ve Ekonomi Araştırmaları dergisi, 2009, sayı 11, s.29-45; Taşkın T. 11 Eylül Saldırıları Sonrası ABD Dış Politikasında Ortadoğu ve Türkiye-ABD İlişkileri. Edirne, 2010, 130 s.; Gürkan İ. NATO ve Türkiye: Soğuk Savaş Sonrasında Türkiye'nin İttifaktaki Yeri ve Geleceğe Yönelik Düşüncelere İlişkin Bir Değerlendirme. Çağdaş Türk Diplomasisi: 200 Yıllık Süreç, TTK, Ankara, 1999, 763 s.; Oğuzlu T. NATO ve Türkiye: Dönüşen İttifakın Sorgulayan Üyesi, Uluslararası İlişkiler, 2012, cilt 9, sayı 34, s. 99-124 və b.

[2] Molla A. Göstərilən əsəri, s. 43

[3] Balcı A. Türkiye dış politikası: ilkeler, aktörler, uygulamalar. İstanbul: Çınar Matbaacılık və Yayıncılık, 2013, 344 s.; Sönmezoğlu F. Türk dış politikasının analizi. İstanbul: Der yayınları, 1994, 520 s.

[4] Гуськова Е.Ю. История Югославксого Кризиса (1990-2000). М.: Русское нраво, 2001, 720 с.; Ramet S. P. War in the Balkans/ Foreign Affairs, Fall 1992, pp. 82-85 və b.

da[1] NATO-nun fəaliyyətinə geniş şəkildə nəzər salınmışdır. Y. Quskovun "Yuqoslaviya böhranının tarixi" əsəri xüsusilə diqqətəlayiqdir. Bu əsərdə Cənub-Şərqi Avropada baş verən böhranlara münasibətdə haqlı olaraq "Qərb dünyasında Yuqoslaviya faciəsi haqqında yazılanların əksəriyyət etibari ilə obyektiv xarakter daşımaması qeyd olunur"[2]. Lakin tədqiqatçı sanki unudur ki, RF-nın daha çox dəstək verdiyi Serbiya kimi rifahını Rusiya ilə birlikdə görən yeni Cənub-Şərqi Avropa dövlətinin olması ilə yanaşı NATO-ya ümid bəsləyən keçmiş "Varşava Müqaviləsi Təşkilatı"nın üzvləri də vardır. Bu səbəbdən də keçmiş Yuqoslaviya Sosialist Federativ Respublikasında baş verənlərin dəyərləndirilməsində bir çox məqamlarda ziddiyyətli fikirlər ortaya çıxmış və hər iki cəbhənin tərəfdarları arasında daha çox subyektivliyə meyillilik üstünlük təşkil etmişdir.

Yaxın və Orta Şərqdə cərəyan edən hadisələrin tədqiqinə dair sadalanan əsərlər üçün ümumi bir cəhət "Ərəb baharı" timsalında baş verən hadisələri tədqiq edərkən daha çox təhlilə deyil hadisələrin təsvirinə üstünlük verilməsidir. Xüsusilə də İraq, Liviyanın timsalında Qərbin əvvəli xoş başlayıb, sonrası inqilabla bitən fəaliyyətini tədqiq edərkən məsələyə birtərəfli yanaşmaları və ABŞ-ın "gördüyü böyük işlər", yəni ABŞ-ın yuxarı elitasının da etiraf etdiyi kimi hazırda regionda fəallaşan qüvvələrin bir vaxtlar özləri tərəfindən silahlandırılması məsələsi üzərində duraraq problemi ümumi formada dəyərləndirə bilməmələridir. İstər 1991-ci il I Körfəz və 2003-cü il İraq müharibəsi, istərsə də Yaxın və Orta Şərqdə baş verən digər böhranlar vaxtı həm daxili şərtləri, həm də xarici amil kimi Qərbin, Rusiyanın və Türkiyənin mövqelərinin düzgün formada təhlil edilərək ümumiləşdirilməməsi indiyə qədər aparılan tədqiqatların əhəmiyyətini azaldır. Bu məqamı diqqətdə saxlayaraq biz problemin öyrənilməsində, apardığımız təhlil və ümumiləşdirmələrdə obyektiv olmağa çalışmışıq.

**Dissertasiya işinin mənbə bazası.** Mövzunu araşdırarkən XX əsrin sonu - XXI əsrin əvvəllərində Türkiyə - NATO münasibətlərini işıqlandıran zəngin mənbə bazasına müraciət edilmiş və tədqiqata cəlb olunmuşdur. Bu mənbələri aşağıdakı kimi sistemləşdirmək olar:

---

[1] Darwish A., Alexander G. Unholy Babylon: A Secret History of Saddam's War. London: Virago Press, 1991, 335 p.; Gresh A., Vidal D. Ortadoğu Mezapotamya'dan Körfez savaşı'na. Çev. Handi Türe. İstanbul: Alan yayıncılık, 1991, 166 s. və b.

[2] Гуськова Е.Ю. История Югославксого Кризиса (1990-2000). М.: Русское нраво, 2001, с.9

- Türkiyə Böyük Millətlər Məclisinin elektron arxivlərindən əldə edilmiş protokollar, qanunlar və qərarlar;
- Türkiyə Cümhuriyyətində ayrı-ayrı ölkələrlə bağlı tərtib edilən hesabatlar;
- NATO-nun sammitlərində qəbul edilən bəyannamələr;
- Ayrı-ayrı dövlət başçılarının və dövlət nümayəndələrinin rəsmi yazışmaları, çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məruzələri, müraciətləri və xatirələri;
- Faktları, sənədləri, ayrı-ayrı hadisələrə verilən şərhləri özündə əks etdirən müxtəlif məcmuələr.

TBMM elektron arxivlərindən əldə edilən protokollar, qanun və qərarlar mövzunun tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, tədqiqatın gedişində NATO-nun Şərqə doğru genişlənməsi prosesi ilə bağlı hazırlanan və qəbul edilən sənədlərdən istifadə edilmişdir. Bu sənədlər Türkiyə elitasının NATO-nun genişlənməsi prosesinə münasibətdə tutduğu mövqeyi aydınlaşdırmaq üçün dəyərlidir. Qeyd edək ki, NATO-ya hər dəfə yeni üzv qəbul edilərkən üzvlük protokolu təsdiqlənmək üçün müttəfiqlərin ali qanunverici orqanlarında müzakirə edilir və qərarlar qəbul edilir. İndiyə qədər qəbul edilən bu cür qərarlarda Türkiyə Cümhuriyyəti NATO-nun genişlənməsini dəstəklədiyini bəyan etmiş, lakin bu dəstəyinə şərt olaraq hər dəfə Avropa ailəsinə tam üzv olaraq qəbul edilmək istəyini bəyan etmişdir. Təəssüf ki, dəfələrlə Aİ üzvlüyü istiqamətində niyyətini bəyan etməsinə baxmayaraq[1] Türkiyə bu arzusunu reallaşdıra bilməmişdir. Qəbul edilən sənədlərin maraqlı cəhətlərindən biri də NATO-nun genişlənməsi ilə bağlı qəbul edilən bu qərarların üçüncü bir dövlətə - Rusiyaya qarşı yönəlmədiyinin qeyd edilməsi idi.

Türkiyədə ayrı-ayrı ölkələrlə bağlı tərtib edilən hesabatlar da problemin tədqiqi baxımından mühüm mənbə xarakteri daşıyır. Xüsusilə ölkə hesabatları[2] Türkiyənin Avropa dövlətləri ilə ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlıq əlaqələrini daha dolğun şəkildə araşdırmağa imkan yaradır.

Mənbələrin digər bir qrupunu isə NATO-nun sammitlərində qəbul edilən qərarlar və bəyannamələr təşkil edir. Bu sammitlərdən London

---

[1] TBMM Genel Kurul Tutanağı. Dönem: 20; Yasama yılı: 3. S.Sayısı: 749-750; TBMM Genel Kurul Tutanağı. Dönem: 20; Yasama yılı: 4. S.Sayısı: 751.

[2] Letonya ülke raporu/http://izto.org.tr/demo_betanix/uploads/cms/yonetim.ieu.edu.tr/56061439211690.pdf; Slovakya ülke raporu/http://www.ito.org.tr/ Dokuman /Ulke/Slovakya.pdf

(1990)[1], Roma (1991)[2], Madrid (1997)[3], Praqa (2002)[4], İstanbul (2004)[5], Strasburq-Kehl (2009)[6], Çikaqo (2012)[7], Nyu Port (2014)[8], Varşava (2016)[9] sammitlərinin qəbul etdikləri bəyannamələrin mətninə NATO-nun tədqiqatın xronoloji çərçivəsinə uyğun olaraq, digər sammitlərin sənədlərinə isə əsasən ayrı-ayrı tədqiqatlara istinadən müraciət edilmişdir.

Ayrı-ayrı dövlət başçılarının və dövlət nümayəndələrinin rəsmi yazışmaları, çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məruzələri, müraciətləri və xatirələri də mövzunun mənbə bazasının bir hissəsini təşkil edir. Xüsusilə, Türkiyə və NATO-nun rəsmi nümayəndələrinin çıxışları, nitqləri, bəyanatları, müsahibələri və yazışmalarından problemin tədqiqində geniş şəkildə istifadə edilmişdir. Çıxışların bəziləri birbaşa kütləvi informasiya vasitələrinə müraciət edilməklə istifadə edilsə də[10], bir qisminə

---

[1] London declaration on a transformed North Atlantic Alliance issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council http://www.nato.int/docu/comm /49-95/c900706a.htm

[2] Rome Declaration on Peace and Cooperation/http://www.nato.int/docu/comm/49-95/c911108a.htm

[3] Madrid Declaration on Euro-Atlantic Security and Cooperation İssued by the Heads of State and Government/ http://www.nato.int/docu/pr/1997/p97-081e.htm

[4] Prague Summit Declaration/http://www.nato.int/docu/pr/2002/p02-127e.htm

[5] NATO: The Istanbul Summit/House of Commons Library Research Paper 04/60, 2004, 46 p.

[6] Strasbourg/Kehl Summit Declaration. Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Strasbourg/ Kehl/http://www.nato.int/cps/en/natolive/ news_52837.htm

[7] Louisa Brooke-Holland and Tom Rutherford. NATO: The Chicago Summit. Standard Note: SN06325. 14 May 2012.

[8] Wales Summit Declaration/ http://www.nato.int/cps/ic/natohq/official_texts_ 112964.htm

[9] Warsaw Summit Communiqué/http://www.nato.int/cps/en/natohq/official_ texts_ 133169.htm

[10] Bosna'nın NATO'ya Üyeliği İçin En Çok Desteği Türkiye'den Alıyoruz/http://www.haberler.com/bosna-nin-nato-ya-uyeligi-icin-en-cok-destegi-4413695-haberi/; Macaristan'a gidin Avrupa'ya sıçrayın. "Hürriyet" gaz., 2002, 11 Mayıs; Çek Bakan'a özür diletti, "Milliyet" gaz., 2011, 17 nisan; Turkish overview on Euroatlantic Security Questions: Report by NATO Parliamentary Assembly. 12-15.12.2000 və s.

əsasən ayrı-ayrı toplular və tədqiqatlar daxilində müraciət edilmişdir[1]. Tədqiqatla bağlı sabiq Baş Qərargah rəisi Nəcib Torumtayın xatirələrindən[2] də istifadə edilmişdir. Xüsusilə bu iki mənbəyə müraciət edilməsi iki mühüm problemin – İraq müharibəsinin tənzimlənməsində NATO-nun mövqeyini, Türkiyənin bu məsələyə münasibətdə götürdüyü siyasi xətti daha obyektiv şəkildə başa düşmək olur.

Faktları, sənədləri, ayrı-ayrı hadisələrə verilən şərhləri özündə əks etdirən müxtəlif məcmuələr də mövzu ilə bağlı qaynaq xarakteri daşıyır. Bu qaynaqlardan artıq ən mühümü sözsüz ki, Baskın Oranın redaktəsi ilə nəşr olunmuş "Türkiyənin xarici siyasəti: Qurtuluş müharibəsindən bugünə faktlar, sənədlər və şərhlər" adlı 3 cildliyin son iki cildi və Cüneyt Yenigünün redaktəsi ilə nəşr edilən "Soyuq müharibədən sonra TBMM və xarici siyasət: sənədlər-şərhlər" toplusudur. Cüneyt Yenigünün redaktoru olduğu topluda[3] xüsusilə, Xarici İşlər Nazirliyinin, NATO ilə bağlı ayrı-ayrı partiya nümayəndələrinin müzakirələrinə, səsləndirdiyi fikirlərə müraciət olunmuş və TBMM-nin NATO-nun genişlənməsinə münasibətinin müəyyən edilməsinə çalışılmışdır. Baskın Oranın redaktəsi altında çap olunan 3 cildiyin isə əsasən "ABŞ və NATO ilə münasibətlər" bölməsinə müraciət edilmiş və təqdim edilən ayrı-ayrı faktlar təhlil edilərək Türkiyə-NATO münasibətlərinin inkişaf dinamikasının müəyyən edilməsinə cəhd edilmişdir.

Bütövlükdə, təqdim edilən mənbələrin sistemli şəkildə tədqiqata cəlb edilməsi və müqayisəli şəkildə öyrənilməsi ilə Türkiyə-NATO münasibətlərinin hansı formada inkişaf yolu keçdiyini daha obyektiv şəkildə izləmək mümkün olmuşdur.

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Türkiyə-NATO münasibətləri ilə bağlı əldə edilən nəticələri

---

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Otuz beşinci kitab: iyun, 2001 - avqust, 2001 / H. Əliyev; bur. məsul R. Ə. Mehdiyev. Bakı: Azərnəşr, 2011, 520 s.

[2] Torumtay N. Orgeneral Necip Torumtay'ın Anıları. Istanbul: Milliyet, 1994, 159 s.

[3]Yenigün M.C. Soğuk Savaş sonrasında TBMM ve dış politika: belgeler-yorumlar. Ankara: Nobel, 2004, 567 s.; Türk Dış Politikası: Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar. 3 ciltte. Cilt 2: 1980-2001/Editör: Baskın Oran. İstanbul: İletişim yayınları, 2001, 637 s. (Bundan sonra Türk Dış Politikası. Cilt 2); Türk Dış Politikası: Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar. 3 ciltte. Cilt 3: 2001-2012/Editör: Baskın Oran. İstanbul: İletişim yayınları, 2013, 885 s. (Bundan sonra Türk Dış Politikası. Cilt 3).

ümumiləşdirmək və Türkiyənin NATO ilə əməkdaşlığının inkişaf dinamikasını öyrənməkdir. Bu məqsədə nail olmaq üçün qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

- Türkiyənin NATO-nun yeni strategiyasında yeri və rolunu müəyyənləşdirmək;
- I Körfəz müharibəsi dövründə Türkiyə-NATO münasibətlərini tədqiq etmək;
- Türkiyənin NATO ilə əməkdaşlıq çərçivəsində həm Balkan, həm də Yaxın və Orta Şərq siyasətinin inkişaf dinamikasını təhlil etmək;
- NATO-nun Şərqə doğru genişlənmə siyasətində Türkiyənin rolunu və mövqeyini öyrənmək;
- Türkiyənin NATO-nun yeni üzvləri ilə üzvlüyə qədərki və üzv olduqdan sonrakı ikitərəfli və ittifaqdaxili münasibətlərdə götürdüyü siyasi kursu müəyyənləşdirmək;
- Beynəlxalq terrorizmə qarşı mübarizədə Türkiyə-NATO əməkdaşlığının inkişaf səviyyəsini öyrənmək;
- NATO-nun sülhməramlı əməliyyatlarında Türkiyənin iştirakını təhlil etmək.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiya işində qarşıya qoyulan məsələləri tədqiq edərkən, mövcud fakt və hadisələrin müqayisəli təhlilinə üstünlük verilmiş, nəzəri yanaşma metodu əsas götürələrək tarixilik prinsipinə əməl olunmuşdur. Dissertasiyanın başlıca müddəalarının əsaslandırılması, ümumiləşdirmələrin aparılması və tövsiyələrin irəli sürülməsi istifadə olunmuş tədqiqatlardakı, müxtəlif mənbələrdəki faktik materialın sistemli və statistik təhlili, tənqidi təhlili, qiymətləndirilməsi və təşkilati metodları əsasında mümkün olmuşdur.

**Tədqiqatın obyekti.** 1991-2016-ci illərdə Türkiyə – NATO münasibətləridir.

**Tədqiqatın predmeti.** Türkiyə və NATO arasında münasibətləri şərtləndirən amillər, hərbi, təhlükəsizlik və beynəlxalq terrorçuluğa qarşı mübarizə, iqtisadi-ticarət, enerji, mədəniyyət, elm-təhsil, humanitar, sosial sahələrində əməkdaşlıqdır.

**Dissertasiya işinin xronoloji çərçivəsi.** 1991-ci ildən 2016-cı ilə qədər olan dövrü əhatə edir. Problem xronoloji çərçivəyə uyğun olaraq araşdırılmış və tədqiq edilmişdir. Tədqiqatın başlanğıcının 1991-ci ildən götürülməsi "soyuq müharibə"nin başa çatması ilə əlaqəlidir. Tədqiqatın 2016-cı ildə başa çatması isə ABŞ-dakı hakimiyyət dəyişikliyinin NATO-nun fəaliyyətinə təsiri ilə bağlıdır.

**Dissertasiya işinin elmi yeniliyi.** Dissertasiya işinin elmi yenilikləri əsasən aşağıdakılardır:

- Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq XX əsrin 90-cı illərinin əvvəllərindən 2016-cı ilə qədər Türkiyə-NATO münasibətlərinin inkişaf dinamikası kompleks şəkildə tədqiq edilmişdir;
- Cənub-Şərqi Avropada sülh və sabitliyin bərpa olunmasında, NATO-nun bu istiqamətdə genişlənməsində Türkiyənin aktiv fəaliyyəti tarixşünaslığımızda ilk dəfə sistemli formada tədqiq edilmişdir;
- Yaxın və Orta Şərqdə cərəyan edən hadisələrə münasibətdə Türkiyənin tutduğu mövqe və NATO ilə birgə fəaliyyəti geniş şəkildə nəzərdən keçirilmiş və nəticələri müəyyənləşdirilmişdir;
- Beynəlxalq terrorizmə qarşı mübarizədə Türkiyənin mövqeyini daha yaxşı başa düşmək üçün Yaxın və Orta Şərqdəki böhran mərkəzləri ilə NATO-nun hərbi müdaxilələrinə qədər olan ikitərəfli münasibətləri də tədqiq olunmuşdur;
- Tədqiqatın gedişində Türkiyənin NATO-nun bəzi üzvləri, xüsusilə də Yunanıstan, Çexiya, Danimarka ilə təşkilat daxilində yaranan problemlər də tədqiq olunmuşdur;

**Dissertasiya işinin praktik əhəmiyyəti.** Azərbaycan tarixşünaslığında Türkiyə-NATO münasibətləri ilə bağlı aparılan tədqiqatlar əsasən Cənubi Qafqaz tərəfdaşlığı çərçivəsində olmuşdur. XX əsrin sonu-XXI əsrin əvvəllərində Türkiyənin alyansla əməkdaşlığı, bu əməkdaşlığın NATO-nun yeni strategiyası və şərqə doğru genişlənməsi aspektində keçdiyi inkişaf yolunun xüsusi tədqiqat mövzusuna çevrilməsi həm elmi-nəzəri, həm də praktiki baxımından mühüm əhəmiyyət kəsb edir. Tədqiq olunan məsələlərin əksəriyyəti Azərbaycan tarixşünaslığında ilk dəfə araşdırıldığından bu tədqiqatın nəticələri, ümumiyyətlə beynəlxalq münasibətlər tarixinin öyrənilməsinə həsr edilmiş gələcək elmi-tədqiqat işləri zamanı müəyən əhəmiyyət daşıya bilər.

Dissertasiyada Türkiyə-NATO münasibətləri tarixi mənbələr, o cümlədən də imzalanan müqavilələr, qəbul edilən qərarlar, konsepsiyalar və digər mənbə və materiallar əsasında çox sadə dildə şərh edilir. Burada tədqiq olunan məsələlərin nəticələrindən Türkiyənin Cənub-Şərqi Avropa, Yaxın və Orta Şərq, Cənubi Qafqaz regionlarının tədqiqində mənbə kimi istifadə edilə bilər. Dissertasiya materiallarından həmçinin ali məktəblərdə Türkiyə Cümhuriyyətinin xarici siyasəti mövzusunda mühazirə və fakültativ kurslarda istifadə oluna bilər. Tədqiqatın praktiki əhəmiyyəti

ondan ibarətdir ki, onun nəticələri ali təhsil müəssisələrində XX əsrin sonu-XXI əsrin əvvəllərində Türkiyənin terrorizmə qarşı mübarizəsinə, Cənub-Şərqi Avropa ölkələri, Yaxın və Orta Şərq ölkələri, ABŞ ilə münasibətlərinə dair dərsliklərin hazırlanmasında istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin “Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi” kafedrasının 14 iyun 2017-ci il tarixli iclasında müzakirə edilərək müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiya işinin əsas müddəaları müəllifin nəşr olunmuş elmi məqalələri və konfranslarda etdiyi məruzələrində əks olunmuşdur.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya giriş, yarımfəsilləri özündə birləşdirən üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II.DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, istifadə olunmuş mənbə və ədəbiyyatlar təhlil edilmiş, dissertasiya işinin məqsəd və vəzifələri müəyyənləşdirilmiş, xronoloji çərçivəsi, nəzəri-metodoloji əsası, elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilmişdir.

Üç yarımfəsildən ibarət olan birinci fəsil **"Soyuq müharibə başa çatdıqdan sonra Türkiyə NATO-nun yeni strateji planlarında"** adlanır. **"Avropa təhlükəsizlik sistemində NATO-nun rolunun güclənməsi və Türkiyə"** adlanan birinci yarımfəsildə Türkiyə və NATO arasında qarşılıqlı maraqlar araşdırılmışdır. 1990-cı illərdə baş verən "regional qarşıdurmaların" BMT və ya Aİ kimi təşkilatların imkan və qabiliyyətləri ilə həll edilməsinin çətinliyi NATO-ya hələ də ehtiyac olması barədə fikir formalaşdırırdı. Beynəlxalq terrorizmə qarşı mübarizəni əsas siyasi xətti elan edən Alyans hər növ böhranın həlli kimi yeni strategiya irəli sürdü. Yeni strategiya 1990-cı il 5-6 iyul tarixlərində NATO-nun London sammitində Bəyannamə[1] ilə elan edildikdən sonra, 1991-ci ildə Romada NATO-nun yeni dövr üçün prinsiplərini bəyan edən növbəti sammiti keçirildi. Bu sammitdə qəbul olunan sənədlər NATO-nun gələcək fəaliyyətinin əsasını təşkil edirdi. Sammitdə NATO-nun yeni strateji konsepsiyası qəbul edildi[2]. Yeni konsepsiya "Qarşıdurma əsasında təhlükəsizlik" anlayışını "Əməkdaşlıq əsasında təhlükəsizlik" anlayışı ilə əvəz etdi[3].

Yarımfəsildə aparılan araşdırmalardan məlum olur ki, 1990-cı illərə qədər NATO daxilində mübahisə mövzusu olan "hüduddan kənar" problemi həllini tapdı[4]. NATO-nun 1999-cu il sammiti avropalı müttəfiqlərlə soyuq müharibədən sonra yaranan narazılığı da aradan qaldırdı. Belə ki, NATO-nun sadəcə "Şimali Atlantika Müqaviləsi Təşkilatı" deyil, "Avropa-Atlantika" təşkilatı olması bəyan edilirdi. Çünki təşkilatın əsas məqsədi kimi bütün Avropa və Şimali Amerikanın

---

[1] London declaration on a transformed North Atlantic Alliance issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council http://www.nato.int/docu/comm/49-95/c900706a.htm.

[2] Koyuncu H. NATO'nun yeni stratejik konspeti ile birlikte NATO içerisinde Türkiye'nin konumu. Yüksans lisans tezi. Ankara, 2010, s.24.

[3] Rome declaration on Peace and Cooperation/http://www.nato.int/docu/comm/49-95/c911108a.htm.

[4] Türk Dış Politikası: Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar. 3 ciltte. Cilt 2: 1980-2001/Editör: Baskın Oran. İstanbul: İletişim yayınları, 2001, s.306-307.

təhlükəsizliyini təmin etmək ön plana çıxırdı[1]. Əslində isə bu cür qərar qəbul edilməsi NATO-nun lideri olan ABŞ-ın qurumdakı rolunun daha da artması və yeni hədəflərini NATO vasitəsi ilə reallaşdırmaq istəyi ilə bağlı idi. Çünki ABŞ-ın yeni strategiyası, NATO-nun öhdəliyi olaraq qəbul edilən yeni missiyalar və təşkilatın Şərqə doğru genişlənməsi siyasəti arasında paralellər meydana çıxarırdı. ABŞ üçün bu paralelliyin ana xəttini dünyada baş verən hadisələrə bir mərkəzdən nəzarət etmək və öz üstün mövqeyini daha da möhkəmləndirib genişləndirmək təşkil edirdi. Bu istəyini həyata keçirmək üçün həm strateji mövqeyinə, həm də beynəlxalq arenada əhəmiyyətinə və dünyəvi dövlət olmasına görə Türkiyə Cümhuriyyəti ilə sıx əməkdaşlığa ehtiyac var idi.

NATO-nun gələcəkdə regional bir müdafiə təşkilatından dünyəvi təhlükəsizlik təşkilatına çevrilməsi üçün hər cəhətdən ABŞ-ın maraqlarına cavab verən güclü bir Türkiyənin NATO-da olması onu daha da gücləndirmiş olardı. Qərb dünyasının uzunmüddətli bir üzvü, Aİ-yə üzvlük yolunda namizəd bir ölkə, ABŞ-ın etibarlı müttəfiqi, terrorla mübarizədə cəbhə ölkəsi olan Türkiyənin rolu tez-tez görünməzlikdən gəlinsə də, ümumilikdə beynəlxalq münasibətlərdə əhəmiyyətli bir dövlət olması qəbul edilirdi[2]. Türkiyənin Orta Şərqə doğru bir qapı rolunu oynaması da onun mövqeyini gücləndirirdi.

Beləliklə, NATO təşkilatının "soyuq müharibə"-dən sonrakı fəaliyyətinin davam etdirilməsində əsas məqsəd həm Avropanın bütövlüyünün, ABŞ və Avropanın təhlükəsizliyinin təmin edilməsi, həm də Şərqə doğru ABŞ-ın nüfuzunun yayılmasının təmin edilməsi idi. NATO Türkiyəni Şərqə doğru genişlənmək üçün istifadə etməyi hədəfləsə də Türkiyə XX əsrin sonlarından başlayaraq sırf Avropa ittifaqına üzv edilmək ümidi ilə təşkilatın hər təklifinə "bəli" deməyəcəyini, bəzi məsələlərdə müstəqil qərarlar qəbul etməsi və addım atması ilə təsdiqlədi.

**"I Körfəz müharibəsi dövründə Türkiyə-NATO münasibətləri"** adlanan ikinci yarımfəsildə XX əsrin 90-cu illərində NATO-nun yeni strategiyasının müəyyən edilib Türkiyə ilə münasibətlərin yeni mərhələsinə qədəm qoyulmasından sonra bərqərar edilən prinsiplərin təcrübi baxımdan yoxlanılması məsələsi ortaya çıxırdı. Qeyd etmək lazımdır ki, Türkiyə Körfəz böhranı vaxtı ABŞ-ı dəstəkləyən siyasətinin də

---

[1] Doğan N. NATO'nun örgütsel değişimi, 1949-1999: Kuzey-Atlantik İttifakından Avrupa-Atlantik Güvenlik Örgütüne/Ankara Üniversitetis SBF Dergisi. 60/3, 2005, s.100

[2] Kibaroğlu M.,Kibaroğlu A. Global Security Watch-Turkey. USA, 2009, p.102

köməyi ilə Orta Şərqdəki mövqeyini gücləndirdi”[1]. Lakin müharibənin gedişində İraqla sərhədlərini bağlayan Türkiyə böyük iqtisadi ziyana uğradı. Belə ki, İraqla ticarət əlaqələrini kəsməklə 10 milyard dollar qazanıb 100 milyard dollar ziyan edən Türkiyə kimi, ABŞ tərəfindən silalandırılıb sonra elə onun özü tərəfindən hücum hədəfinə çevrilən İraq da Körfəz böhranından böyük ziyan gördü.

Aparılan araşdırmalar göstərir ki, tarixdə I Körfəz müharibəsi kimi tanınan bu hərbi əməliyyatın Türkiyə üçün mənfi nəticələri daha çox olan bir hadisə kimi dəyərləndirilə bilər. Xüsusilə də, İraqın şimalında baş verən siyasi hadisələr və yaranan iqtisadi problemlər Türkiyəyə daha çox zərər vurdu. İqtisadi baxımdan Körfəz müharibəsi neft qiymətləri, quru nəqliyyatı xidmətləri və ixracat üzərindəki mənfi təsirlərinə görə Türkiyə iqtisadiyyatının ciddi ziyan görməsinə səbəb oldu. Bu problemlərdən başqa İraqın şimal bölgəsində yaranan demoqrafik boşluq və onun yaratdığı xaos, Türkiyənin cənub-şərq sərhəddində yeni təhdid və risk bölgəsinin meydana gəlməsinə zəmin hazırladı. Bu da Türkiyənin terrorla mübarizədə hərbi xərclərinin artmasına səbəb oldu. Digər tərəfdən də Körfəz müharibəsi dövründə və artan terrorun kölgəsində iqtisadi fəaliyyətin çətinləşməsi, cənub-şərqi Anadolu bölgəsində köç, iş yerlərinin bağlanması və işsizlik kimi bir sıra sosial-iqtisadi problemləri daha da artırdı. Bölgədə sənaye və kənd təsərrüfatı istehsalı tənəzzül nöqtəsinə çataraq ixracatda çətinliklər yaratdı. Bu da azmış kimi İraqdan Türkiyəyə sığınacaq axtaran şəxslərin axını sosial xərcləri artırdı. Türkiyənin şərqində və cənub-şərqindəki fövqəladə vəziyyət bu bölgələrin potensial inkişafı qarşısında böyük bir maneə yaratmaqla yanaşı ölkənin təhlükəsizliyi ilə də bağlı ciddi problemlərin həlli yolunda xərclərin artmasına gətirib çıxardı.

**“NATO ilə əməkdaşlıq çərçivəsində Türkiyənin Balkan siyasəti (XX əsrin 90-cı illəri)”** adlanan üçüncü yarımfəsildə isə Türkiyə və NATO arasında əməkdaşlıq, onun formaları və həyata keçirilmə mexanizmləri araşdırılmışdır. Türkiyənin Avropaya açılan qapısı olan Balkan ölkələri böyük dövlətlərin və taşkilatların hər zaman diqqət mərkəzində olmuşdur. Türkiyənin Kipr və Yunanıstan siyasəti NATO müttəfiqlərinin maraqları ilə ziddiyyət yaradırdısa, 1990-cı illərdə Balkanlarda baş verən etnik toqquşmalar, xüsusilə də keçmiş Yuqoslaviyada tamamilə fərqli bir təsir yaratdı. Türkiyə hökuməti Qərb dövlətlərinin 1992-1995-ci illərdə Bosniya və Herseqovinada, 1999-cı ildə

[1] Athanassopoulou E. American-Turkish Relations Since the End of the Cold War, p.146

Kosovoda başlayan hərbi fəaliyyətini diqqətlə müşahidə etdi və ona müvafiq siyasi kursunu müəyyənləşdirdi. Türkiyə NATO-nun bu bölgədə və qonşu respublikalardakı fəaliyyətini dəstəkləyərək, BMT ilə NATO-nun bölgədə reallaşdırdığı əməliyyatlarda əməli olaraq iştirak etdi. Bu cür addım atmaqla Türkiyə, onunla müqayisədə NATO-nun Balkan siyasətində iştirak etməkdə həvəssiz görünən və əməkdaşlıq etməyən Yunanıstanın əksinə, müttəfiqlik qərarlarına (ən azından 1995-ci ildən başlayaraq) tam dəstək verdiyini göstərmiş oldu[1].

Bütövlükdə belə qənaətə gələ bilərik ki, soyuq müharibə başa çatdıqdan sonra da NATO-nun yeni strateji planlarında Türkiyə Cümhuriyyəti öz əhəmiyyətini qoruyub saxlamış, istər NATO-nun Körfəz, istərsə də Balkan siyasətində aparıcı rol oynamaqda davam etmişdir.

Üç yarımfəsildən ibarət olan **ikinci fəsil "NATO-nun şərqə doğru genişlənmə siyasətində Türkiyənin mövqeyi"** adlanır. **"NATO-nun şərqə doğru genişlənməsinə beynəlxalq ictimaiyyətin və Türkiyənin münasibəti"** adlanan birinci yarımfəsildə 1994-cü il yanvarın 10-11-də NATO-nun Brüsseldə təşkil edilən konfransında təşkilatın Şərqə doğru genişləndirilməsinin rəsmi olaraq qəbul edilməsi və bunun qlobal sistemə təsiri araşdırılmışdır. Beynəlxalq münasibətlər və xarici siyasətin təhlili sahəsində sayılıb seçilən mövqeyə sahib olan görkəmli şəxsiyyətlərin bir çoxlarının qarşı çıxmasına baxmayaraq NATO-nun genişlənməsi tədqiqatçılar üçün izaha ehtiyac duyulan bir müəmma olaraq 1990-cı illərdən bu günə qədər mövzu barədə yazılan onlarla məqalə və kitabın ilham qaynağını təşkil edirdi: "NATO niyə genişləndi?"[2]. Neorealist və liberal baxışlı şəxslərin bu suala verdikləri cavablar müxtəlifdir. NATO-nun genişlənməsi həm realist, həm də liberal baxışlara əsasən bir çox tədqiqatçılar tərəfindən yanlış addım olaraq dəyələndirilirdi. Realist tədqiqatçılara görə, NATO-nun genişlənməsinin mənfi tərəfi Rusiyanın beynəlxalq sistemdən kənarda qalması və bu kənarlaşdırılma ilə də yenidən ABŞ əleyhinə olan bir cəbhənin formalaşdırılması olmuşdur[3]. Neoliberal baxımdan isə üzvlərinin az xərclə təhlükəsizliyini təmin edə bilən NATO ailəsinə uzun hüdudları, zəif orduları və az inkişaf etmiş

---

[1] Hale W. Türk dış politikası 1774-2000. İstanbul: Mozaik, 2003, s. 276

[2] Barany Z. The Future of NATO Expansion. New York, Cambridge University Press, 2003, 278 p.; Jacoby W. The Enlargement of the European Union and NATO. New York: CUP, 2004, 287 p.

[3] Gaddis J.L. History, Grand Strategy and NATO Enlargement // Survival: Global Politics and Strategy. Vol. 40, issue 1, 1998, p.145-151

iqtisadiyyatı ilə qoşulmuş olan Şərqi Avropa ölkələri mövcud üzvlər üçün hər hansı bir fayda təmin edə biləcək gücdə deyildi.

**"Türkiyənin NATO-nun yeni üzvləri ilə qarşılıqlı münasibətləri"** adlanan ikinci yarımfəsildə Türkiyənin yeni üzv ölkələri ilə təşkilata qədərki və üzv olduqdan sonrakı münasibətlər araşdırılmışdır. Yarımfəsildə aparılan tədqiqatlardan belə nəticəyə gəlmək olur ki, Türkiyə yeni üzvlərin ittifaqa qoşulmasının NATO-ya güc qatacağını, bu üzvlüyün Sülh Naminə Tərəfdaşlıq layihəsinin üzvü olan digər dövlətlər üçün də bir hədəf olacağını bəyan edirdi. Digər tərəfdən də Türkiyə NATO-nun genişlənməsi məsələsinə Rusiya Federasiyası kimi üçüncü dövlətlərin mənfi reaksiyalarına qarşı həssaslığını nümayiş etdirirdi. Türkiyə, NATO-nun Şərqə doğru genişlənməsinə Rusiyanın Qafqazda hərbi varlığını artırmaq və burada nüfuz dairəsini genişləndirməklə cavab verəcəyindən narahat olub bu problemi təkbaşına aradan qaldıra bilməyəcəyini də yaxşı başa düşürdü. Türkiyə genişlənməyə qarşı Rusiyanın hər hansı bir əks həmləsinin olmaması üçün Madrid zirvəsində aşağıdakı məsələlərə diqqət yönəltməyə çalışırdı:

– NATO-nun daxili və xarici uyğunlaşma müddəti ittifaqın əsas təhlükəsizlik rolunun əhəmiyyətinə heç bir halda təsir göstərməməli və NATO Qərbin əsas təhlükəsizlik orqanı və siyasi məşvərət forumu olaraq qalmalı idi.
– NATO-nun genişlənməsi tədricən həyata keçirilməli və üçüncü bir tərəfi hədəf almamalı idi (Üçüncü tərəf deyildikdə Rusiya Federasiyası nəzərdə tutulur – H.H.).
– Keçid dövründə Sülh Naminə Tərəfdaşlıq proqramının imkanlarından maksimum dərəcədə istifadə edilməli idi.
– NATO-ya üzv olaraq qəbul edilən dövlətlər arasında coğrafi tarazlıq bərqərar edilməli idi; Rumıniya, Bolqarıstan və Albaniya genişlənmədən kənarda qalmamalı idi[1].

Üçüncü yarımfəsildə isə **"NATO-nun Qərbi Balkanlar və Cənubi Qafqaza doğru genişlənmə siyasətində Türkiyənin rolu"** araşdırılımışdır. Rusiyanın təhdidlərinə baxmayaraq Balkanların qərbində Monteneqro, Bosniya və Herseqovina, Makedoniya Alyansa üzv olmaq üçün fəaliyyətini davam etdirirdi. Türkiyə digər NATO üzvü - Yunanıstanla müqayisədə bu dövlətlərin ən böyük dəstəkçisidir. Bütövlükdə tədqiqatın gedişində belə bir qənaətə gəlmək olar ki, NATO-nun Balkanların qərbində yeni genişlənmə dalğasının gedişatı Türkiyənin

[1] Purtaş F. Soğuk Savaş sonrası NATO'nun dönüşümü, s.19-20

də maraqlarına cavab verir. Çünki Balkanların qərbindəki dövlətlərin NATO-ya üzv qəbul edilməsi nəinki ittifaq daxilində, hətta bu regionda Türkiyənin mövqeyinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

NATO təşkilatı 1992-ci ildə Şimali Atlantika Əməkdaşlıq Şurasına qoşulan, 1994-cü ildə "Sülh namin tərəfdaşlıq" proqramını imzalayan Cənubi Qafqazdakı tərəfdaş ölkələr - Azərbaycan, Gürcüstan və Ermənistan ilə əməkdaşlığı ötən əsrin sonlarından başlayaraq dərinləşdirməkdə davam edir. Bu baxımdan da NATO-nun Şərqə doğru genişlənməsində daha böyük yük Türkiyənin üzərinə düşür, çünki bölgə ilə qonşuluq münasibətlərindən başqa Türkiyə ilə bütövlükdə Qafqaz regionu arasında dərin kökləri olan tarixi və mədəni bağlar vardır. Lakin tədqiqatın gedişində məlum olur ki, NATO-nun Balkanların qərbinə, xüsusilə də Cənubi Qafqaza doğru genişlənməsi məsələsi Türkiyənin fəallığından çox, Rusiyanın mövqeyindən asılı olduğuna görə bu genişlənmə o qədər də real görünmür. Çünki Qafqaz regionunda ittifaq üçün qazanılan bir müttəfiq Rusiya Federasiyasının həm iqtisadi, həm də strateji maraqlarına böyük zərbə vura bilər. Rusiya Federasiyası belə bir güzəştə getməyəcəyini istər XX əsrin 90-cı illərində baş verən Dağlıq Qarabağ münaqişəsində, istərsə də 2008-ci ildə Gürcüstana hərbi müdaxiləsi ilə əyani şəkildə göstərmiş oldu.

**"XXI əsrin əvvəllərində Türkiyə-NATO münasibətləri"** adlanan **üçüncü fəsil** iki yarımfəsildən ibarətdir. **"Beynəlxalq terrorizmə qarşı mübarizədə Türkiyə-NATO əməkdaşlığı"** adlanan birinci yarımfəsildə 2001-ci il 11 sentyabr hadisələrindən sonra qlobal sistemə təsir edən dəyişikliklər və bu dəyişikliklər fonunda Türkiyə-NATO münasibətləri xronoloji ardıcıllıqla şərh və təhlil edilmişdir. Qeyd olunmuşdur ki, NATO terrorla mübarizədə qəbul edilən əsas müddəaların icrası istiqamətində sərt və kəskin tədbirlər görəcək. Bu istiqamətdə atılan ilk addım Əl Qaidə lideri Usama bin Ladenin cəzalandırılması olmuşdur.

Araşdırmalardan bəlli olur ki, Türkiyə Əfqanıstan müharibəsinin gedişində NATO üzvü kimi ABŞ-a tam dəstək verdi. Hətta ABŞ hərbi təyyarələrinin ölkənin hava sahəsinə daxil olmasına icazə vermiş və əməliyyata qatılan təyyarələrin "İncirlik", "Yenişehir" və "Afyon" hava bazalarından istifadə edilməsinə şərait yaratmışdır.[1] Uzun illər terrordan əziyyət çəkmiş bir ölkə olan Türkiyənin belə bir addım atması gözlənilən idi. İraq Əfqanıstandan sonra "ikinci hədəf" olaraq müəyyənləşdirilmişdi.

---

[1] Nasuh U. Türk Dış Politikası Yol Ayrımında Soğuk Savaş Sonrasında Yeni Sorunlar, Yeni İmkanlar ve Yeni Arayışlar, İstanbul: Anka yayınevi, 2006, s. 353-354

İraqda hərbi əməliyyatı təhlükəsizlik baxımından müdafiə etdiyini bəyan edən ABŞ rəhbərliyi bu hücumu edib-etməməyə deyil, hansı formada edəcəyini müzakirə mövzusuna çevirməyi bacardı. ABŞ-ın İraqı işğal etməsi Türkiyənin qayğılarını daha da artırdı. Əvvəlcə Türkiyə İraqın ərazi bütövlüyünü müdafiə edən qəti bir rəftar nümayiş etdirdi və əks istiqamətdə baş verən hadisələrə tez-tez öz narahatlığını bildirdi[1]. Lakin Türkiyə hökuməti İraqın işğalının qarşısının alına bilməyəcəyini də yaxşı başa düşürdü.

**"NATO-nun sülhməramlı əməliyyatlarında Türkiyənin iştirakı"** adlanan ikinci yarımfəsildə Türkiyənin NATO çərçivəsində münaqişələrdə ziyan dəymiş ölkələrdə apardığı sülh yaratma tədbirləri araşdırılmışdır. Qeyd olunmuşdur ki, NATO Əfqanıstanda öz üzərinə missiya götürmüş, İraqda təlim keçmiş, Aralıq dənizində patrul əməliyyatları həyata keçirmiş, Darfurda Afrika İttifaqı sülhməramlılarına maddi dəstək göstərmiş, Pakistana humanitar yardım etmişdir. 1990-cı illərdə "ya hüduddan kənara çıxacağı, ya da fəaliyyətsiz qalacağı" (out of area or out of business) əsas müzakirə obyekti olan NATO, hüdudlardan kənara çıxmaqla bağlı müzakirələrini çoxdan arxada qoyaraq artıq XXI əsrin ilk illərində qlobal təşkilata çevrilməyə başladı[2].

Araşdırma göstərir ki, Əfqanıstanda imic problemi yaşayan NATO üçün Türkiyə əhəmiyyətli bir töhfə idi. Hətta, bəzi vaxtlarda digər NATO səlahiyyətlilərinin Türkiyənin bu müsbət imicindən faydalanaraq rəsmi nəqliyyat vasitələrinə türk bayrağı taxmaqla Kabil daxilində səfərlər etdikləri də məlumdur[3].

Bütövlükdə ötən əsrlə müqayisədə Türkiyə üçün daha çox problemlərin ortaya çıxması ilə müşahidə olunan XXI əsrin əvvəlləri NATO ilə münasibətlərə yenidən baxılmasını zəruri edir. Mövcudluğunu qoruyub saxlamaq üçün ilk öncə terrorizm üçün zəmin hazırlayan NATO ilə əməkdaşlığın Türkiyəyə yeni əsrdə fayda verməsi həqiqətən də sual doğurur. İstənilən halda NATO ilə yaxud NATO-dan ayrı bir Türkiyə hər zaman problemlər yaşamaqda davam edəcək. Əgər elə olmasaydı, dünyanın münaqişə bölgəsindən 13-ü Türkiyəyə yaxın ərazilərdə yerləşməzdi. Bu

---

[1] Kurubaş E. Türkiye-Suriye-İran Arasındaki İşbirliği Çabalarının Analizi ve Ortadoğu'daki Güç Dengelerine Etkisi/ Avrasya Dosyası dergisi. Ankara: ASAM Yayınları, 2003, Cilt: 9, Sayı: 4, s. 205.

[2] Siyasi Açıdan NATO'yu Bir Kere Daha Yeniden Yaratmak/http:// www.nato.int/docu/review/2005/issu e2/turkish/analysis.html.

[3] Türk Dış Politikası. Cilt 3, s.310.

günü və gələcəyi üçün Türkiyənin bu amili daim diqqətdə saxlayıb balanslaşdırılmış siyasət yeritməklə yanaşı, daha güclü dövlət olmaqdan başqa çıxış yolu yoxdur.

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqata yekun vurulmuş və müvafiq elmi ümumiləşdirmələr aparılmışdır.

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində əksini tapmışdır:**


1. Körfəz müharibəsi zamanı NATO-Türkiyə münasibətləri // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı, 2014, №4, səh. 110-115.
2. NATO-nun Kosovo əməliyyatı və Türkiyə // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı, 2015, №4, səh. 355-360.
3. NATO-nun Balkan siyasətində Türkiyənin rolu // "Kitabi-Dədə Qorqud" və Türk Dünyası. "Kitabi-dədə Qorqud"un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. Bakı, 2015, səh. 740-745.
4. Отношение Турции к расширению НАТО на восток // Гілея. Науковий вісник збірник наукових праць. Випуск 114 (№11). Киев, 2016, с. 423-426
5. Türkiyənin NATO-nun yeni üzvləri ilə münasibətləri (2004-2009-cu illər) // Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, Bakı, 2016, №2, səh. 129-141.
6. NATO-nun yeni strategiyasında Türkiyənin yeri və rolu // Материалы V Международной научно-практической интернет-конференции «Евразийское пространство в мировой цивилизации» посвященная 25-летию Независимости Казахстана. Астана 2016, səh. 4-8.
7. Türkiyənin NATO-nun yeni üzvləri-Çexiya, Macarıstan və Polşa ilə münasibətləri // Bakı Universitetinin Xəbərləri. Humanitar Elmlər Seriyası (tarix elmləri üzrə). Bakı, 2016, №3, səh.182-191.
8. Bosniya Böhranının tənzimlənməsində Türkiyənin NATO ilə birgə fəaliyyəti // "Geostrategiya" jurnalı, Bakı, 2017, №1, s.53-57.
9. NATO-nun Cənubi Qafqaza doğru genişlənmə siyasətində Türkiyənin rolu // "Tarix və onun problemləri". Nəzəri, elmi, metodik jurnal. Bakı, 2017, №2, səh.152-158.

**Гусейнли Г.А**

# ВЗАИМООТНОШЕНИЯ ТУРЦИИ И НАТО (90-е гг. XX в. – начало XXI в.)

## РЕЗЮМЕ

Диссертация посвящена одной из актуальных проблем внешней политики Турецкой Республики – теме «Взаимоотношения Турции и НАТО (90-е гг. XX в. – начало XXI в.)». Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

**Во «Введении»** обосновывается актуальность исследования, определяются ее предмет и объект, хронологические рамки, цель и задачи, рассматриваются степень изученности проблемы и источниковая база, отмечаются научная новизна, методы анализа материала, а также оценивается теоретическая и практическая значимость работы.

**В первой главе**, «Турция в новых стратегических планах НАТО после окончания холодной войны» рассматриваются факторы, обусловившие становление и укрепление отношений между Турцией и НАТО, принятие новой концепции Альянса, а также сотрудничество между Турцией и НАТО в сфере обеспечения военной безопасности и борьбы с международным терроризмом.

**Во второй главе** «Позиция Турции в расширении НАТО на Восток» исследуются вопросы относительно расширения Альянса на восток, также приводится анализ обстоятельств и факторов, влияющих на деятельность Альянса и место отведенной в нем Турции.

**В третьей главе** «Отношения Турция и НАТО в начале XXI века», освещаются вопросы сотрудничества между Турцией и НАТО в борьбе с международным терроризмом и участие Турции в миротворческих операциях НАТО.

В «**Заключении»** обобщены результаты исследования и сделаны основные научные выводы.

**Huseynli H.A**

# TURKEY-NATO RELATIONS
## (90s of XX century - early XXI century)
## SUMMARY

The dissertation **"Turkey-NATO Relations (90s of XX century - early XXI century)"** is dedicated to the actual problems of the Republic of Turkey's foreign policy. The dissertation work consists of "**Introduction, Three Chapters, Conclusion and Bibliography**".

In the **"Introduction"** has been spoken about the actually and scientific importance of the theme, determined object and problems of the research, shown chronological frames of the research. Also the scientific innovation, metodological base, and practical significance of the candidate thesis have been analyzed.

In first chapter, named **"After the Cold War, Turkey in NATO's new strategic plans"** have been investigated factors that stipulated ties between Turkey and NATO, new concept of Alliance, as well cooperation in military safety and struggle against international terrorism.

Second chapter is called **"Turkey's position in NATO's expansion towards the East".** In this chapter, NATO's expansion towards the East, it's circumstances and factors that affected to the Union and the role of Turkey in this situation have been researched.

In the third chapter, **"Turkey-NATO relations at the early 21st century"** have been analysed development of cooperation between Turkey and NATO in building, cultural, scientific, educational, social and humanitarian spheres after operations.

In the **"Conclusion"** definite scientific outcomes of the dissertation have been analyzed.

*Kağız formatı 60x84, 1/16. Tiraj 100*

*«Bakı Universiteti Nəşriyyatı». AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ГУСЕЙН АБДУЛЬРАХМАН ОГЛЫ ГУСЕЙНЛИ**

# ВЗАИМООТНОШЕНИЯ ТУРЦИИ И НАТО

**(90-е гг. XX в. – начало XXI в.)**

**Специальность: 5507.01 – История международных отношений**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора
философии по истории**

**БАКУ - 2018**